**Bilməm Nə Görübdür Bizim Oğlan Oxumaqdan?!**

Bilməm nə görübdür bizim oğlan oxumaqdan?!
Dəng oldu qulağım.
Jurnal, qəzetə, həzəvü hədyan oxumaqdan
İncəldi uşağım.



Ağlın aparıb bəs ki, baxır gündə qarayə,
Ya rəb, nə həmaqət!
Söz etməz əsər, çarə qalıb indi duaya.
Tədbir elə, övrət!
Lənət sənə, ifritə, sənindir bu cəhalət.
Etdin nə xəyanət!
Səndan törənibdir bizim evdə belə bidət,

Ey mayeyi – hiylət!
Tutsun çörəyim gözlərinin ağu qarasın,
Ey, həmsəri-bədxah!
Haşa, oda yaxmaz ana istəkli balasın,
Kəssin səni allah!
Bu tifli oxutmaqlığa etdin məni təğrib,
Hər eylədin iğva.
İndi nədi fikrin? İşimiz oldu bu tərkib,
Yox çarəsi əsla.

Heyhat ki, tədbir ola bu xanəxarabə,
Zail olub əqli,
Dərsə, qəzetə, məktəbə, jurnalə, kitabə
Mail olub əqli,

Yıxdın evimi, eylədin evladımı zaye,
İş keçdi məhəldən
Mən anlamaram elm nədir, ya ki sənaye,
Zarəm bu əməldən
İstərdim o da mən kimi bir hörmətə çatsın,
Dünyadə dolansın;
Ta qol gücünə malik olub şöhrətə çatsın.
Azadə dolansın;
Bir vəqtdir indi ki, olub Rüstəmi – dövran,
Bir ad qazanaydı;
Qarətlər edib ta ki, tapaydı sərü saman.
Bir şey də qanaydı.
Puç eylədin övrət, bu gözəl, sadə cavanı!
Dilbilməz oğul, vay!
Rəngi saralıb, qalmayıb əsla yarı canı,
Bir gülməz oğul, vay!
Ax naxələf oğlum nə çətin məşqə düşübsən,
Ey, kaş, usanaydın!
Quldurluğa yox, elmə tərəf eşqə düşübsən,
Bu qübhü qanaydın!
Ey nuri-düçeşmim, oxumaqdan həzər eylə,
Saleh vələd ol, gəl!
At min, hünər öyrəş, məndi də bəxtəvər eylə,
İşdə bələd ol, gəl!
Bəsdir oxudun, az qala canın tələf oldu,
Bu kardən əl çək!
Yazmaq, oxumaq başına əngəl-kələf oldu,
Əşardən əl çək!
Min elm oxuyub söz biləsən, hörmətin olmaz
Bu dari-cahanda;
Söz bəhrinə gövhər olasan, qiymətin olmaz.
Xasə bu zamanda.
Yox, yox, baxıram fikrinə, səndən öğul olmaz,
Canın bəcəhənnəm!
Mırt-mırt oxumaqdan, kişi, bir qan ki, pul olmaz!
Mırtılda dəmadəm.
Qıl elm fərahəm.
Ol qüssəyə həmdəm;
Ömrün olacaq kəm;
Düşmən sənə aləm…

---

Mətni yığdı: Nərgiz Abadi
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova